

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 44-45 (7506-7507) 1933-cü ildən nəşr olunur Cümə, 5 oktyabr 2018-ci il. news@qebele-ih.gov.az


## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

*3 oktyabr*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çex Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Milan Ekertin etimadnaməsini qəbul edib.

*28 sentyabr*

Düşənbədə MDB Sammiti çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında söhbət olub. Tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına, tərəflərin təmas xəttində və Ermənistan ilə Azərbaycan arasındakı sərhəddə insidentlərin qarşısının alınması üçün atəşkəs rejiminin möhkəmlənməsinə dair danışıqlar prosesinə sadiq olduqlarını bildiriblər. Tərəflər müvafiq strukturlar arasında operativ əlaqə qurulması üçün mexanizmlərin yaradılmasını qərara alıblar.

* * *

Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə görüşü olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak edib.

* * *

Düşənbədə MDB Dövlət Başçıları Şurasının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə iclası olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

* * *

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun adından MDB dövlət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi qəbulda iştirak edib.

*27 sentyabr*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Tacikistan Respublikasına səfərə gedib.

Düşənbə şəhərinin beynəlxalq aeroportunda Prezident İlham Əliyevi Tacikistanın Baş nazirinin müavini Azim İbroxim və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olub.

Azərbaycan və Rusiya prezidentləri görüşdə çıxış ediblər.

* * *

Heydər Əliyev Mərkəzində IX Azərbaycan-Rusiya Regionlararası Forumunun rəsmi açılış mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mərasimdə iştirak ediblər.

# Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin kiçik və orta sahibkarlığın inkişafına göstərdiyi dəstək uğurlu nəticələrini verir

Ölkəmizdə həyata keçirilən iqtisadi strategiyanın əsas istiqamətlərindən biri də sahibkarlığın inkişafıdır. Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin qeyd etdiyi kimi "ölkəmizin gələcək inkişafı sahibkarlığın inkişafından asılıdır". Buna görə də ölkədə sahibkarlığın inkişafına böyük diqqət göstərilir. Nəticədə son 15 ildə Azərbaycanda fəaliyyət göstərən sahibkarların sayı 4,2 dəfə artıb, indiyədək 35 mindən çox sahibkara 2,2 milyard manatadək güzəştli kreditlər verilib.



Sahibkarlığın inkişafı, biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması ilə bağlı həyata keçirilən sistemli və məqsədyönlü tədbirlər öz müsbət bəhrələrini verir.

Ölkə Prezidenti cənab İlham Əliyev sahibkarlığın inkişafı sahəsində dünya ölkələrinin qabaqcıl təcrübəsinin öyrənilməsinə, müasir texnologiyaların tədbiqinə əsaslanan istehsal sahələrinin yaradılmasında xüsusi diqqət yetirir.

Bunun nəticəsidir ki, Azərbaycan iqtisadiyyatının şaxələnməsi təmin edilib.Kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən diqqət və qayğı daha da genişləndirilir. Ötən ilin dekabrında dövlət başçısı kiçik və orta sahibkarlığın inkişafına dövlət dəstəyinin daha da gücləndirilməsinə dair fərman imzalamışdır. Bu mühüm sənəd ölkə Prezidenti cənab İlham Əliyevin bu sahəyə nə qədər diqqət göstərdiyinə sübutdur. "Dövlət sahibkarlar üçün ən yaxşı tərəfdaşdır" -deyən Azərbaycan Respublikasının Prezidenti hələ bir neçə il öncə hər bir sahə üzrə konkret proqramların, planların və böyük maliyyə ehtiyatlarının olduğunu söyləyəndə məhz belə lahiyələri nəzərdə tuturdu.

Bu ilin iyun ayında ölkə prezidenti İqtisadiyyat Nazirliyində Kiçik və orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında fərman imzalamış, qurumun nizamnamə və strukturunu təstiq etmişdir.

Hazırda ölkəmizdə kiçik və orta sahibkarlıq subyektlərinə müxtəlif dövlət orqanları tərəfindən səlahiyyətləri çərçivəsində məsləhət, satış və digər istiqamətlər üzrə xidmətlər göstərilir. Ancaq ölkə başçısının fərmanı ilə yaranmış yeni qurum beynəlxalq təcrübəyə əsaslanaraq kiçik və orta sahibkarlıq subyektlərinə xidmətlərin vahid mərkəzdə göstərilməsini təmin edəcəkdir ki, bu da sahibkarlıq subyektlərinin həmin xidmətlərdən daha səmərəli istifadəsinə imkan yaradacaqdır. Buna görə də Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin yaradılması mühüm əhəmiyyət kəsb edir. Agentliyin əsas məqsədi kiçik və orta sahibkarların əsil dostuna çevrilməsi və eyni zamanda sahibkarlığın hüquqi təminatının gücləndirilməsi, regionlarda sahibkarlığın inkişafına əlverişli şəraritin yaradılması əsasında dayanıqlı inkişafın təmin edilməsidir.

Artıq yeni qurumun regionlarda bir bölməsi yaradılıb. Ölkə Prezidenti sentyabrın 18-də cənub bölgəsinə səfəri çərçivəsində Masallı sənayə məhəlləsinin açılışı zamanı İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin burada yaradılmış "Kiçik və Orta Biznesin Dostu" mərkəzi ilə tanış oilub.

Gələcəkdə ölkənin digər şəhər və rayonlarında da sahibkarlara dəstək məqsədilə yaradılacaq "Kiçik və Orta Biznesin Dostu" mərkəzlərinin fəaliyyəti yeni kiçik və orta biznes sahələrinin yaradılmasına, kiçik və orta sahibkarlığın inkişafı vasitəsilə regionların potensialının daha effektiv reallaşdırılmasına yönələcək.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin yaradılması dövlət başçısı tərəfindən sahibkarlığın inkişafına göstərilən diqqət və qayğının daha bir göstəricisidir. Agentliyin missiyası kiçik və orta biznesin tənzimlənməsi sahəsində effektivliyin artırılması, çoxsaylı dəstək mexanizmlərinə sahib Karların rahat çıxışının təmin edilməsi, biznes subyektlərinin maraqlarının müdafiəsi əsasında bu sektorun davamlı inkişafının təmin edilməsindən ibarətdir.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin 10 iqtisadi rayon üzrə 60 "Kiçik və Orta Biznesin Dostu" şəbəkəsinin yaradılması nəzərdə tutulub. Bu şəbəkələr sahibkarlara əsasən 5 sahədə dəstək göstərəcək. Əsas istiqamət dövlət dəstəyindən ibarət olacaq, yeni sahibkar müvafiq dövlət qurumu ilə sıx əlaqədə ola biləcək. "Kiçik və Orta Biznesin Dostu" şəbəkəsi sahibkarlarla dövlət qurumları arasında körpü rolu oynayacaq. Sahibkarların hüquqlarının müdafiəsinə xüsusi diqqət ayrılacaq. "Kiçik və Orta Biznesin Dostu" şəbəkəsi sahibkarlara maliyyə bazarlarına çıxış məsələlərində kömək edəcək, onlara sorğu və monitorinq xidməti göstərəcək.

Beləliklə, ölkə Prezidenti cənab İlham Əliyevin fərmanı ilə yaradılmış Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və onun yerli şəbəkələri sahibkarlığın, xüsusilə, kiçik və orta sahiblkarlığın inkişafında mühüm rol oynayacaq.

**"Qəbələ"**